# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** XX yüzilliyin 60-cı illərində Azərbaycan milli toxuculuq sənəti ilə yanaşı müasir qobelen sənəti də dekorativ-tətbiqi sənətin uğurlu bir növü kimi yanaşı addımlamağa başlayır. Əsrlərdən bəri ənənəvi toxuculuq sənətinin (bədii parça, palaz, kilim, xalça və s.) inkişaf tapdığı bir ölkədə müasir qobelen sənəti məktəbinin meydana gəlməsi sənətşünaslıq elmi qarşısında yeni üfüqlər açır. Bu baxımdan özünün dəsti xətti, üslubu və nəhayət məktəbi ilə incəsənət tarixinə yol taparaq sənətkarların yaradıcılıq yolunu izləmək sənətşünaslıq elminin əsas maraq dairəsində qalaraq mövzunun aktuallığını təşkil edir.

Hər bir yeniliyə böyük ruh yüksəkliyi ilə yanaşan Azərbaycan rəssamlarından bir qrupu özünəməxsus ənənələrə malik olan bu sənətin sirlərinə yiyələnməyə başlayırlar. Dekorativ-tətbiqi sənətin qobelen sahəsinə meyl göstərən rəssamlarımızdan R.Eminova, S.İsmayılov, Ə.Yusubov, F.Hüseynova, A.Rəcəbov, B.Şərifova, T.Məmmədova özlərini bu sahədə sınayırlar. Göstərilən sənətkarlar bədii obrazlar sisteminə, seçdikləri mövzu və ideyalarla gerçəkliyin fəlsəfi qavranmasına görə bir-birindən tamamilə fərqli mövqe tuturdular. Təfəkkür obrazının dəyişməsi, təsvir vasitələrində novatorluq axtarışı əcdadı xovsuz xalçalar olan qobelen yaradıcılığında rəssamların bədii professionallığını artırırdı. Bu baxımdan özünü Azərbaycanda qobelen məktəbi yaratmaq vəzifəsinə həsr edən Əməkdar rəssamı ƏdhəmYusubovun yaradıcılığının, onun dəsti xəttinin ölkəmizdə bu sənətin inkişafı kontekstində araşdırılması diqqətəlayiqdir.

Ədhəm Yusubov yaradıcılığı və qobelen sənətində fəaliyyəti Azərbaycanda dekorativ-tətbiqi sənətin inkişafı mərhələləri ilə təmasda keçdiyi üçün onun elmi tədqiqinə ehtiyac duyulur və məsələyə məhz bu kontekstdən baxılması aktuallıq kəsb edir.

**Problemin tədqiq olunma dərəcəsi.** Azərbaycanda dekorativ-tətbiqi sənətin müxtəlif növlərinin sənətşünaslıq baxımından tədqiqi aparılmış, bu sahənin həm tarixi, həm də müasir dövrləri kifayət qədər işıqlandırılmışdır.

Göstərilən istiqamətdə xalq sənətinin ən yüksək zirvəsi olan xalça toxuculuğunun elmi tədqiqatı xüsusilə diqqətəlayiqdir. Bu sahədə L.Kərimovun, K.Əliyevanın, R.Tağıyevanın, V.Muradovun, E.Gülün, X. Əsədovanın, T.Məmmədovanın apardığı elmi axtarışlar sənətşünaslıq aləmində daha önəmlidir. Qeyd etmək vacibdir ki, xalça ölkəsi olan Azərbaycanda, onun müasir davamçısı olan yeni qobelen toxuculuq sənəti heç də az öyrənilməmişdir. Bu barədə xüsusilə

Azərbaycan dekorativ-tətbiqi sənətinin, həmçinin incəsənət aləminin görkəmli rəssam və şəxsiyyətlərinin həyat və fəaliyyətinin öyrənilməsində rəssam sənətşünas alimlərimizdən M.N.Nəcəfovun, R.S.Əfəndiyevin, N.D.Həbibovun, K.C.Kərimovun, M.A.Tərlanovun, A.D.Axundzadənin, E.Ə.Salamzadənin, gənc nəslin nümayəndələrindən Ü.N.Həmidovanın, M.B.Tahirovanın, A.A.Əzizovanın, S.İ.Sadıqovanın, keçmiş sovet məkanında qobelen sənətinin inkişaf yollarını öyrənən tədqiqatçılardan V.İ.Savitskayanın, T.Strijenovanın, M.Aqranovskayanın, S.Pinkusun və digərlərinin xidmətlərini qeyd etmək vacibdir.

Adı çəkilən müəlliflər qobelen sənətinin inkişafı, onun müxtəlif rəssamların yaradıcılığında öz əksini tapması məsələlərinə toxunsalar da, Azərbaycan qobelen məktəbinin yaranmasına aid olan xüsusi sahə elmi tədqiqat dairəsindən kənarda qalır. Yuxarıda qeyd etdiyimiz kimi, bu vəzifə uzun illər tətbiqi sənətin qobelen sahəsi üzrə fəaliyyət göstərən Əməkdar rəssamı Ədhəm Süleyman oğlu Yusubovun adı ilə bağlıdır.

Müasir dövrdə sənətşünaslıq elmi belə sənət fədailərini üzə çıxararaq onların yaradıcılığını hərtərəfli işıqlandırmağı özünə borc bilir. Belə şəxsiyyətlərin yaradıcılıq yolu tarixi siyasi hadisələrlə dolu olan axırıncı 10 illiklərin keşməkeşindən bütün çətinliklərə qalib gələrək Azərbaycan bədii toxuculuğunda silinməz izlər qoymaqdadır.

**Tədqiqatın məqsədi və əsas vəzifələri.** Azərbaycanda bədii toxuculuğun inkişaf yolunu, onun bir növü olan qobelen məktəbinin yaranmasında dekorativ-tətbiqi sənət üzrə rəssam Ə.Yusubovun yaradıcılığının təsirini və rolunu izləməkdən, həmçinin bu sənətin gələcək inkişafının Dünya səviyyəsinə uyğun istiqamətini müəyyənləşdirməkdən ibarətdir.

Yuxarıda qeyd edilmiş məqsəddən irəli gələrək tədqiqatın qarşısında aşağıdakı vəzifələr durur:

- Avropada yaranmış şpaler sənətinin habelə Rusiyada inkişaf yollarını izləyərək, üslub xüsusiyyətlərini aydınlaşdırmaq;
- bu sahədə fəaliyyət göstərən toxucu ustaların, rəssamların yaratdığı əsərləri nəzərdən keçirmək, onların mövzu və rəng koloritini müəyyən etmək, kompozisiyalarının təhlilini aparmaq;
– şpaler sənətinin yaranmasında əsas amil olan texnologiya sahəsi haqqında məlumat vermək;
– Azərbaycanda qobelen məktəbinin əsasının qoyulmasını tədqiq etmək;
– Azərbaycanda qobelen sənətinin inkişafında Ə.Yusubovun rolunu müəyyən etmək;



***Gulara Faig Veliyeva***

**Edhem Yusubov's activities art of gobelen development consent in Azerbaijan**


## S U M M A R Y

The dissertation is devoted to research of the modern decorative art – gobelen, connection with name of painter Adham Yusubov, the art which is devoted in context elevation the present tune art in Azerbaijan.

Dissertation is consists of preamble, three chapters, seven small chapters, conclusion and bibliography and album illustration. Preamble substantiates the actuality of chosen topic, shows haw studied the work is, sets forth goals and main objectives of the research, emphasizes the subject matters as well as the methodology of studies, highlights the scope and novelty of the research and explains practical value of the thesis.

In 1st chapter which is called "Returning the art of gobelen and the way his development" noticed paint time this art beginning an Europe his technology and the decorative delicate gobelen in Azerbaijan art.

In the second chapter called "The gobelen profession of Adham Yusubov" looked for the last etaps. In the summary of analyze found different janrs in the profession A.Yusubov, his way to abstractionism.

Third chapter called – "The painter Adham Yusubov creative gobelen school in Azerbaijan" looked for his pedagogical work A.Yusubov looked for his gobelen methodics in the last period and his new forma gobelen. Analyses the gobelen school's of A.Yusubov and perspectives this art in Azerbaijan.

In the conclusion the main deductions from the thesis are reflected.

*Гюляра Фаик кызы Велиева*

**Творчество Адхама Юсубова в контексте развития искусства гобелена в Азербайджане**

**Р Е З Ю М Е**

Диссертация посвящена исследованию одного из направлений современного декоративно-прикладного искусства – гобелену, связанного с именем Заслуженного художника Адхама Юсубова, творчество которого освещается в контексте с развитием в Азербайджане данного вида искусства.

Диссертация состоит их введения, трех глав, семи подглав, заключения, библиографии и альбома иллюстраций.

**Во введении** обосновывается актуальность темы, определяются степень исследованности проблемы, цель и задачи, излагается научная новизна, характеризуются основные источники, хронологические рамки и практическая значимость работы.

**В I главе – «Становление искусства гобелена и пути его развития»** прослеживаются художественные истоки этого искусства, берущие свое начало в Европе, его технологические и художественно-декоративные особенности, определяется место гобелена в художественном ткачестве Азербайджана.

**Во II главе – «Своеобразие гобеленного творчества Заслуженного художника Адхама Юсубова»** рассматриваются ранние этапы творчества художника. В результате анализа произведений выявляется жанровое разнообразие в творчестве А.Юсубова и его тяга к абстракционизму.

**В III главе – «Заслуженный художник Адхам Юсубов – основоположник школы гобелена в Азербайджане»** рассматривается педагогическая деятельность А.Юсубова, сравнивается методика гобеленных школ последнего периода, выявляется формирование нового направления – объемно-пространственного гобелена. Анализируется творчество продолжателей школы гобелена А.Юсубова, намечаются перспективы развития художественного ткачества в Азербайджане.

В **Заключение** обобщаются основные выводы исследования.



– Ə.Yusubovun yaradıcılığı ilə əlaqədar olaraq qobelen sənətinin inkişaf mərhələlərini araşdırmaq;

– Azərbaycanda qobelenin gələcək inkişaf istiqamətlərini təyin etmək;

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Əməkdar rəssamı Ədhəm Yusubovun zəngin bədii irsini təşkil edən qobelen sahəsindəki yaradıcılığı, o cümlədən respublikamızda fəaliyyət göstərən qobelen rəssamlarının yaratdığı əsərlər təşkil edir. Həmçinin rəssamın həyatı, yaradıcılığı və əsərləri haqqında müxtəlif tədqiqatçıların araşdırmaları da tədqiqatın obyektini təşkil edir.

Tədqiqatın predmetini müasir Azərbaycan qobelen sənətinin inkişaf mərhələləri və bu sənət məktəbinin yaranmasında aparıcı rolu olan Əməkdar rəssamı Ədhəm Yusubovun bədii irsi təşkil edir.

**Tədqiqatın metodoloji əsasları.** Müasir sənətşünaslıq elminin sistemli-kompleks elmi yanaşma metodundan, müqayisəli təhlil, bədii təhlil, struktur-semiotik təhlil, həmçinin qobelen məktəbinin yaranmasında digər dövlətlərin mədəniyyəti ilə əlaqəli və müqayisəli təhlil kimi elmi metodlardan istifadə edilmişdir. Sistemli yanaşmanın nəzəriyyə və metodologiyası elmin müxtəlif bilik və təcrübə fəaliyyətinə daxil olaraq onu dəqiqləşdirir, zənginləşdirir. Tədqiq olunan əsərlərin sistemləşdirilməsi, ümumi təsviri sənət janrlarının qobelendə öz əksini tapması ilə əlaqədar olaraq bədii təhlilə daha böyük yer verilmişdir. Bundan əlavə, dissertasiyada qarşıya qoyulan məsələlərin həlli üçün müəllif sənətşünaslığın aparıcı mütəxəssislərin elmi metodologiyasına əsaslanmışdır.

Faktiki material hərtərəfli təhlil edilmiş, imkan daxilində bir çox incəsənət növləri, o cümlədən dekorativ-tətbiqi sənət, miniatür, freska və s. nəzərdən keçirilmişdir. Əlavə olaraq arxiv sənədləri axtarılaraq təhlil olunmuş, materiallar ümumiləşdirilərək şərh olunmuş, müasir sənətşünaslıqla bağlı elmi-nəzəri ədəbiyyat öyrənilmişdir.

Tədqiqatın yerinə yetirilməsində həmçinin Moskva, keçmiş Yuqoslaviya, Almaniya, Çexiya və Slovakiya, Polşa, Bolqarıstan, Rumıniya, Hindistan (Dehli), Kanada dövlətlərində keçirilən sərgi materialları rəssamın şəxsi arxivi və kitabxana materiallarından, əsasən əyani vəsaitlərdən istifadə edilmişdir.

**Tədqiqatın hüdudları.** Dissertasiya Azərbaycan bədii toxuculuğunun təşəkkül tapması dövründən başlayaraq müasir günlərimizə kimi olan bir dövrü əhatə edir. Lakin XX əsrin II yarısından başlamış müasir dövrə kimi olan zaman kəsiyinə daha çox diqqət ayrılır, çünki Azərbaycan qobelen sənətinin çiçəklənmə dövrü məhz bu illərə təsadüf edir.

Ə.Yusubovun fəaliyyətinin təhlili onun yaradıcılığının tarixi və coğrafi əhatə dairəsi ilə bağlı olaraq qədim, orta əsr və yeni dövr Azərbaycan incəsənətinə ekskurs fonunda baş verir. Bu da rəssamın üslub tərzini, fərdi manerasını və dəsti xəttini obyektiv qiymətləndirməyə imkan yaradır.

**Dissertasiyanın elmi yeniliyi.** Tədqiqat işinin elmi yeniliyi məhz problemin qoyuluşu ilə müəyyən olunur və əsasən aşağıdakı müddəalarda öz əksini tapır:

- qobelen sənətinin Azərbaycan bədii toxuculuğunda rolu və yeri müəyyən olunmuş;
- qobelen sənətinin bir məktəb kimi yaranmasına sənət fədailərindən olan Ədhəm Yusubovun yaradıcılığı və pedaqoji fəaliyyəti ilə bir kontekstdə baxılmış;
- Azərbaycanda qobelen sənətinin gələcək inkişaf istiqamətləri göstərilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Araşdırma Azərbaycan incəsənəti tarixində qobelen məktəbinin yaranması kimi mühüm elmi-nəzəri əhəmiyyət daşıyır. Onun əsas tövsiyələrindən bu sahə üzrə dərs proqramlarının təkmilləşdirilməsində, "Azərbaycan incəsənəti tarixi", "Dekorativ-tətbiqi sənət tarixi" fənlərinin tədrisində istifadə etmək mümkündür.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrasında müzakirə edilib, açıq müdafiəyə təqdim olunmuşdur. Araşdırmanın əsas məzmunu, elmi müddəa və nəticələri 7 məqalədə öz əksini tapmışdır.

**Tədqiqatın həcmi və strukturu.** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Tədqiqatın məzmunu kompüter yığımının 138 səhifəsində öz əksini tapmış, illüstrasiyalar isə albom şəklində dissertasiyaya əlavə kimi təqdim olunmuşdur.

## DİSSERTASİYA İŞİNİN QISA MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun müasir sənətşünaslıq və mədəniyyətşünaslıq elmi üçün aktuallığı, tədqiqatın obyekti, predmeti və problemləri, məqsəd və vəzifələri, tədqiq tarixi və işlənmə dərəcəsi, elmi yeniliyi və nəzəri-təcrübi əhəmiyyəti, metodoloji əsasları, aprobasiyası və strukturu haqqında məlumat verilir.

Dissertasiyanın **"Qobelen sənətinin təşəkkülü və təkamül yolları"** adlı **I fəslin** *ilk yarımfəslində* Avropa və Rusiya qobelen sənətinin təşəkkülü, texnoloji və bədii-dekorativ xüsusiyyətləri haqda məlumat verilir.



3. **"Dekorativ tətbiqi sənətdə bədii obraz"** // ADMİU-nun "Elmi əsərlər" toplusu // Urbanizm jur., №15, Bakı, 2010, s.118 -120.
4. **«О творчестве основоположника школы гобелена в Азербайджане Адхама Юсубова. К 70-летию художника»** // Жур. "Вестник" – Казань, 2009, стр. 65-68.
5. **"Ədhəm Yusubovun yaradıcılıgında peyzaj janrı"**// "Təsviri və dekorativ-tətbiqi sənət məsələləri" №2 (10), Bakı, 2012, s. 61-69.
6. **«Этапы развития гобеленного искусство в Азербайджане»** // КНЦНАУиМОиНУ. ТНУ-им В.И.Вернадского. «Культура народов Причерноморья» №199Т2, 2011.стр.186-188.
7. **«Разнообразие жанров гобелена в творчестве Адхама Юсубова»** // «Национальные образы мира в художественной культуре». Материалы Международной конференции. Нальчик 8-9 ноября 2010г., стр. 393-398.

Bəs nə üçün kəsik iki hissəyə bölünmüş spiral? Çünki insan həyatı zaman və fəza daxilində məhdudlaşmışdır”.[9]

Bu əsər 2006-cı ildən Azərbaycan Respublikası Gənclər və Turizm Nazirliyi tərəfindən 2006-cı “ilin ən yaxşı dekorativ sənət əsəri” nominasiyası üzrə Gənclər Mükafatı ilə təltif edilmişdir. Daha sonra magistr pilləsi üzrə diplom işində gənc rəssam “Şəlalə” qobeleni ilə çıxış edir. Bu qobelen tamamilə fəzada olmasa da, yarım yerüstü kompozisiyadır. Onun əsasını təşkil edən hissə divara bərkidilir, qalanı isə döşəməyə tökülür. Beləliklə axar su effekti yaradır. Böyük hündürlükdən sərt sürətlə axan su, axın zamanı özündə bir neçə saniyəlik təkrarolunmaz formalar yaradır. İnsanı vəcdə gətirən bu formalar gözəlliklə gizlədilərək kompozisiya yaratmaq üçün memarlıq, dizayn və heykəltəraşlıq sahələri kimi qobelen sahəsi üçün də çox uğurlu yerinə yetirilmişdir. Ədhəm Yusubovun yetişdirmələri içərisində Vəliyeva Gülarənin bu ikinci uğurlu addımıdır.

Bu gün Dövlət Rəssamlıq Akademiyasının və Əməkdar rəssam Ədhəm Yusubovun gərgin əməyi sayəsində müasir interyerlərin ayrılmaz hissəsi olan qobelen Azərbaycanda monumental sənət istiqamətidir. Onun bu istiqamətdə inkişafının tükənməməyi üçün yeni perspektivlərə üz tutması qaçılmaz, eyni zamanda vacibdir.

Əməkdar rəssam, ADRA-nın “Bədii toxuculuq və xalça sənəti” kafedrasının professoru Ədhəm Yusubov kimi sənət fədaisi olan Azərbaycan qobelen məktəbində yaranan sənət əsərləri müstəsna dərəcədə çoxtərəflidir: bu həm relyef, həm də plastiki həcmdir – özünəməxsus tekstil heykəlidir.

Qobelenin qeyri-ənənəvi materialı, texnikası onun kompozisiya və rəng prinsipləri – bir sözlə, yeni dekorativ forma kimi inkişafı üçün ölkəmizdə bütün zəminlər var və bu sənət inamlı addımlarla bu istiqamətdə hərəkət etməlidir.

**“Nəticədə”** dissertasiyanın əsas müddəaları müxtəsər elmi-nəzəri yekunlar şəklində ümumiləşdirilmişdir.

**Dissertasiyanın əsas müddəaları müəllifin çap olunmuş aşağıdakı məqalələrində öz əksini tapmışdır:**

1. **“Ədhəm Yusubov: “Mənbələr” və yaxud dünya bədii toxuculuq sənətində texnoloji oxşarlıqlar”** //AMEA”İncəsənət və mədəniyyət problemleri” № 1-2 (27-28), Bakı, 2009, s. 268-272.
2. “Ədhəm Yusubovun yaradıcılığında kompozisiya quruluşu və harmoniya” // ADMİU “Elmi Əsərlər” № 7-8, Bakı, 2009, s.154-160.

[9] Н.Баннаева. Черно-белая модель вселенной // газ. “Известия Азербайджана”. 27 марта 2005



Bu sənət toxuculuq məmulatı olduğu üçün onun texnologiyası barədə də bir az xəbər verilir. Belə ki, toxuculuq texnologiyasına görə şpalerlər eşilmiş əriş, yun və ya kətan, arğac üçün isə yun, ipək və rəngli saplardan və Fransada “qotlis”, Flandriyada isə “basilis” tipli dəzgahlardan istifadə olunurdu.

Qərbi Avropada yaranmış “şpaler” toxuculuq sənətinin incəsənət aləminə yol alması və əsasən sarayların dəbdəbəli mülklərin interyerini bəzəməsi, onun süjetli parçaların texnoloji cəhətdən isə xovsuz və xovlu xalçaların varisi olduğunu bir daha sübuta yetirir.

Şpalerlər əsas divar xalçaları kimi kilsələr, ratuşalar və s. ictimai binaların interyerində istifadə olunurdu. Şpalerlərin əsas vətəni Fransa və Flandriya idi. Getgedə bu sənət növü Almaniya və Skandinaviya ölkələrində inkişaf etməyə başladı. Əsasən Almaniyanın Reyk, Bavariya, Saksoniya, Şimali İsveçrə və Elzac vilayətlərində geniş vüsət aldı.

1263-cü ildə Pyero Etuen Buavanın təşəbbüsü ilə yaranmış “Peşə kitabı” fransız şpalerləri haqqında ilk məlumat verir. Qeyd etdiyimiz kimi, Paris şpaler toxuculuğunun mərkəzi idi. Tarixi faktlar arasında 1375-ci ildə ticarətçi Nikala Batayuyu, Hersoq Lyudoviq I Anjuyskin tərəfindən sifariş edilən “Anjerski Apokalipsis” silsilə şpalerləri diqqəti cəlb edir.

1607-ci ildə Fransa kralı I Henri Parisdə tapestr parça istehsalının əsasını qoyur. Bu illərdə flamand toxucuları Marko Romans Fransua de Planş, varlanmış, nəsilcə məşhur rəngkar Jan Qobelenin boyakarlıq müəssisələri 1662-ci ildə kralın naziri Kolber tərəfindən birləşdirilərək öz dövrünə görə iri şpaler manufakturasına çevrilir. Əvvəlcə Fransanın kral manufakturasında toxunan şpalerlər Qobelenov qardaşlarının adı ilə bağlanaraq “Qobelen” adlanmağa başlanır. Bu dövrdə mərkəzi kompozisiyası sabit qalmaqla fonu (fr. alentur) sarı-qırmızı-yaşıl rənglərlə dəyişdirən naxışlarla təkrarlanan kompozisiyalar seriyası əmələ gəlməyə başladı.

XIX əsrdə Qərbi Avropada şpaler istehsalı bütün ölkələrdə tənəzzül dövrünü yaşayır, əsasən şpaler ustaları C.L. Davidin, C.L. Qronun, A.L. Ciroyenin, I Napoleonun qələbə və dövlət fəaliyyətini təsvir edən məşhur rəsmlərinin, həmçinin Rafaelin, Titsianın, Qvido Reninin əsərlərinin surətlərini çıxarmaqla məşğul olurlar. Hələ 1716-cı ildə I Pyotrun təşəbbüsü ilə Peterburqda şpaler manufakturasının əsası qoyulur və rəsmi olaraq “imperator” manufakturası adlandırılır. Fransadan işləmək üçün şpaler ustaları buraya dəvət olunur və bu müddətdə Vavokun “Natürmort” (1717-1720 illər) Karavakkanın “Poltava döyüşü” (1723 il), “Fontanda olan Virsaviya” (1727 il) və s. şpalerləri icra edilir.

XX əsrdə Fransada Uilyam Morris maşın istehsalının manufakturaları tənəzzülə uğratmasına qarşı çıxıb, orta əsr toxuculuğuna qayıdaraq XX əsr – yeni dövr tapiseriyaları ilə əsri heyran qoyur. Bir neçə onillikdən – Uilyam Morrisdən sonra bədii toxuculuğun əsas islahat dəyişikliyi Jan Lyursanın üzərinə düşür. J.Lyursa 1000-ə yaxın qobelen kartonlarının müəllifidir: "Apokalipsis" (1947-ci il), "Göyün zəbt edilməsi" (1953-cü il) və s.

J.Lyursa 1945-ci ildə Fransanın rəssam-kartonçularının Assosiasiyasının əsasını qoymuş, 1961-ci ildə isə qədim və müasir tapiseriyalarının Beynəlxalq mərkəzinin (CİTAM, Lozanna, 1961il) yaradıcılarından biridir. 1962-ci ildə o, Lozannada I Beynəlxalq Biennalisini təşkil edir. J.Lyursanın qoyduğu yol toxucu ilə rəssamlıq sənətinin üst-üstə düşməsinin, qobelenin eyni müəllif (həm rəssam, həm toxucu) tərəfindən yerinə yetirilməsi daha çox bəyənilir və qəbul edilirdi. J.Lyursanın ölümündən sonra bu sənətin dirçəlişi Fransanın hüdudlarından kənara çıxır, Hollandiya, Belçika, Şotlandiya, Avstriya, Almaniya, Polşa, İtaliya, İspaniyada fəaliyyət göstərərək Obyusson emalatxanasının ənənələrinin davam etdirirdi.

Polşada qobelen rəssamları əsasən Varşava, Krakov və Lodzda fəaliyyət göstərirdilər. 1971-ci ildə V Biennalisin təltif olunan rəssamları arasında A.Sedovskaya-Vişnevskaya olmuşdur. Eləcə də keçmiş Çexoslovakiyada qobelen sənətkarları 1910-cu ildə U.Morrisin tələbəsi M.Tainkserovanın təşəbbüsü ilə yaradılmış manufaktura fəaliyyət göstərir və bu dövrdə F.Kiselanın təşəbbüsü ilə şüurlu surətdə obrazları bədii forma əsasında quraraq yeni qobelen əsərləri yaradırdılar. 1960-cı illərdən başlayaraq Macarıstanda dekorativ tətbiqi sənətin bu növü beynəlxalq səviyyədə tanınmağa başlayır. Burada toxuculuq sənətinin ən güclü nümayəndələrindən biri Gizella-Şoltadır, ("Mayami", "Çiçəklər və quşlar") o, öz şpalerlərinin coşqun plastikası ilə barokko dövrünün ənənələrini davam etdirir. 1970-ci illərin ortalarında ənənəvi qobelenlərlə yanaşı, incəsənətin dəzgah növü inkişaf etməyə başlayır.

Fəslin *II yarımfəsli* qobelen sənətinin Azərbaycanda əmələ gəlmə tarixindən, milli bədii toxuculuğunda yer tapmasından bəhs olunur, respublikamızda onun yeni maraq doğuran müasir zövqləri oxşayan perspektivli istiqaməti olaraq özünün əsaslı yerini tapmasından söhbət açılır.

Xalça ölkəsi olan Azərbaycanda qobelen sənətinə olan tələbatın əmələ gəlmə səbəbləri qısa məzmunda aydınlaşdırılır və "Qobelen xalçaya lazımdır, deməli Azərbaycana da, çünki o müasir interyerə lazımdır"[1] fikri ilə bir daha bu sənətin

[1] Т.Аграновская. Быть ли гобелена в стране ковра? // "Декоративное искусство СССР», №7, М., 1986.



Ə.Yusubov fiqurativ janrı tələbələrinə də yaxşı aşılamış və onun dəsti xətti onların işində çox maraqlı şəkildə öz əksini tapmışdır. Bu səpkidə nəzərə çarpan işlərdən tələbəsi Cavid Məmmədovun tərəfindən yaradılmış "Tənhalıq" qobelenidir. Bu əsərdə müəllif xətti forma və kontrast rənglərlə tənha bir fiqur təsvir edir. O, meydanda nəhəng, hər şeyi bacaran, kimliyi məlum olmayan tənha bir canlı qüvvədir və öz hərəkətləri iləsə nəyisə yaratdığını bildirir. Bu əsər insanı dərin fəlsəfi fikirlərə yönəldir.

Həmçinin, abstrakt üslubdan böyük məharətlə istifadə edən tələbələr arasında Əhmədova İ. "Duyğu", Nəbiyeva S. "Kitabələr", Şıxaliyev V. "Yuxu" və s. qobelen əsərləri istər mövzu, istərsə də icra baxımından yaddaqalandılar.

Ədhəm Yusubov məktəbinin 2007-ci il məzunlarından sərgi iştirakçısı Hüseynova K. "Adəm və Həvva" qobelenində də konstruktiv həllə müraciət edilmişdir. Qobelenin açıq qəhvəyi fonunda iki al qırmızı rəngdə zolaq nəzərə çarpır. Bu zolaqlar qobelenin daxilində toxunulmamışdır. Onlar ümumi fondan ayrılır, bir qədər fəzaya çıxır və yenidən yuxarı hissədə açıq qəhvəyi fon ilə paralel taxtaya birləşdirilir. Bu zolaqlar Adəm və Həvva fiqurlarını nəzərdə tutur. Hər zaman adları çəkilən, lakin simaları heç kəsə məlum olmayan Adəm və Həvva cütlüyünün bu cür təsəvvür edib canlandırmaq müəllifin orijinal fantaziyaya malik olduğundan xəbər verir.

Artıq Avropada öz yerini tutmuş fəza qobelenləri Azərbaycanda da inkişaf etməyə başlayır, 2004-cü ildə ADRA qobelen bölməsində bakalavr pilləsini bitirən Vəliyeva G. buraxılış işində bizim üçün yeni olan fəza qobeleni ilk olaraq müşahidə olunur. "Əbədiyyət və Ülviyyət" adlanan bu qobelen kompozisiyası fəlsəfi səmtə yönəlmişdir. Gənc rəssam bu qobeleni icra etmək üçün onun əsas çərçivəsində inşaat materialı olan armaturdan istifadə etmişdir. Armatur-qaynaq üsulu ilə bir-birinə birləşdirilmiş və beləliklə, üçbucaq şəklinə salınmışdır. Qobelenin toxunmasında yun, pambıq, kətan saplardan ara-sıra hamar xovlu texnikadan istifadə olunmuşdur. "Əbədiyyət və Ülviyyət" qobeleninin kompozisiya quruluşu qrafika memarlıq və dizayn əsasında qurulmuşdur. Bu işin əsas ideyalarından biri texniki və kompozisiya qrafika, memarlıq və dizayn ilə qobelen arasında sintez yaratmaqdır. G.Vəliyeva öz işində ağ və qara rənglərə üstünlük vermişdir. Plastikanı öz axarı ilə gedən həyatı və hər bir zaman əbədiliyə, ülviliyə can atan cəmiyyəti düşünmüşdür. Qobelen müəllifin öz fərdi sərgisində nümayiş etdirildiyi zaman dövri ədəbiyyatda belə əks-səda vermişdir: "Spiral – DNK simvoludur. Yer üzərində həyat deməkdir. Nə üçün ağ-qara? Elə həyatın özü kimi.

tələb olaraq qalır. Bu cür şərtlər çiçəklənən Azərbaycan qobelen sahəsində də vacibdir. Belə ki, rəssamı ilk öncə ruhlandıran onun işinə qarşı maraq, tələb və tələbatdır. Bunun üçün ADRA-da qobelen bölməsində təhsil alan tələbələr artıq 3-cü kursda "konstruksiyalaşdırma" dərslərini alırlar. Bu dərslərin əsas prinsipi tələbələrə forma, fəza-məkan anlayışına münasibətlərini öyrənmək, təcrübədə tətbiq etməkdir.

İldən-ilə tələbələr Ədhəm Yusubovun rəhbərliyi altında püxtələşir və əvvəl-kindən daha mükəmməl işlər ərsəyə gətirirlər. Akademiyaya mütəmadi olaraq Dünyanın bir çox ölkələrindən qonaqlar gəlir, bu sahənin bizdə sevilib inkişafına təəccüb edirlər. Bu nəticələr Ə.Yusubovu daha da ruhlandırırdı. 2006-cı ildə o, ADRA-da müəllim heyəti və tələbələrin birgə sərgisini keçirir. Sərgi çox böyük səs-küyə səbəb olur. Bu sahənin Azərbaycanda inkişafı gələn qonaqların heyrətə salırdı. Bu sərgidə Ədhəm müəllimin tələbələrinin maraqlı iri həcmli işləri "Şərq motivi", "Təəssürat", "Ekologiya", "Yelkənlər", "Bahar" yadda qalan oldu. Rəssamın həmkar dostlarından S.Nağıyevanın "Bənövşələr", T.Məmmədovanın "Kompozisiya", P.Kuzmenkonun "Abşerona bahar gəlir", F.Hüseynovanın "Bura Vətəndir", C.Məmmədovun "Tənhalıq" və nəhayət Ədhəm müəllim Yusubovun "Zaman" qobelenləri iştirak edir.

Beləliklə, Ə.Yusubov Azərbaycanda qobelen məktəbinin təməlini 1994-cü ildə ADMİU-də qoydu və sonra ADRA-da bu işi davam etdirdi. Məhz burada qobelen layiqli və yüksək dərəcəyə qaldırılaraq dekorativ-tətbiqi sənətlər arasında öz yerini tutdu.

Fəslin *II yarımfəsli* Ədhəm Yusubovun qobelen məktəbinin davamçılarından bəhs edir. Müasir dövrdə Azərbaycanda Ədhəm Yusubovun rəhbərliyi altında hər zaman dayanmadan inkişafda olan bədii toxuculuq sahəsi özünün müasirliyi və pedaqoji təhsil vasitələri ilə seçilir. Bu gün Azərbaycanda Ədhəm Yusubovun rəhbərliyi altında elə onun özünün təməlini qoyduğu qobelen məktəbi bu istiqamətdə yeganədir. 1990-cı ildə hələ İncəsənət Universitetinin nəzdində olarkən onun rəhbərliyi altında hər il 8 böyük ölçülü qobelen toxunurdu. Qobelen məktəbi ADRA-da fəaliyyətə başladıqdan sonra tələbələrin qrupları böyüdü, bununla əlaqədar işlərin sayı da artmağa başladı. Akademiyada Ə.Yusubovun müasir qobelen məktəbində hamar, relyefli, həcmli, divar, mürəkkəb konstruktiv qobelenləri Dünya toxuculuq məktəbi ilə ayaqlaşır.

2006-cı ildə Rəssamlıq Akademiyanın təşəbbüsü və Ədhəm Yusubovun rəhbərliyi altında onun tələbələrinin iştirakı ilə keçirilən qobelen sərgisində mənzərə janrı böyük yer tutmuşdur.



bugünkü dekorativ-tətbiqi sənətdə aparıcı rolu vurğulanır. Tarixə nəzər salaraq, ümumiyyətlə xalq toxuculuğu və müasir tətbiqi sənətdə bədii toxuculuq məmulatlarının ümumi inkişaf yolu izlənir və müəllif tərəfindən tam qətiyyətlə 4 mərhələyə bölünür:

I – bədii parçanın yaranması və inkişafı;
II – xovsuz xalçaların yaranması;
III – xovlu xalçaların yaranması və inkişafı;
IV – şpaler – qobelen sənətinin yaranması və inkişafı.

Azərbaycanda qobelen sənətinin yaranmasını 1960-70-ci illərə aid etmək düzgün olardı.

Klassik xovsuz xalça toxuculuğunun varisi olan qobelen, xalça ölkəsi olan Azərbaycanda müasir interyerdə müxtəlif variasiyalarda tətbiq olunaraq məişətə daxil olur. Bu dövrdə qobelen toxuculuğuna müraciət edən rəssamları klassik sıx toxunma texnikası maraqlandırmırdı. Onlar material toxuculuq texnikası təsviri motiv arasında əlavə probleminə daha çox yer verirdilər. Əsərin əsas ideyasının yaranması obraz zənginliyi və müxtəlifliyə nail olmaq məqsədi, qobelen rəssamlarının müxtəlif materiallardan şəbəkə qurmalarından, kollajdan, ip və kəndir, dəmir əlavələr, lif, taxta materiallardan istifadə etməyə vadar edirdi. İşlərin belə sərbəst həlli köhnəlikdən tam uzaq olan yeni dekorativ formanın yaranmasına gətirib çıxarırdı.

Respublikamızda bu sənətin sarsılmaz davamçıları olan F.Məmmədova, F.Hüseynova, P.Kuzmenko, F.İbrahimova və yaradıcılıq yolunu tədqiq etdiyimiz Ə.Yusubov fəaliyyətlərini artırır və var qüvvələri ilə qobelen sahəsində öz xidmətlərini göstərirlər.

1993-cü ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində tətbiqi sənət şöbəsinin açılması ilə R.Eminov, A.İsmayılov, F.Hüseynova, A.Rəcəbov kimi toxuculuq sahəsində çalışan rəssamlar qobelen sahəsində də özlərini sınayırlar. Qobelen texnologiyasının ölkəmiz üçün özgə olmamağı rəssamlarımızın bu sahədə olan materialı tez mənimsəməsinə və yaradıcılıq süzgəcindən keçirərək milli və fərdi yollarını tapmasına səbəb oldu.

Qobelen rəssamı nəslinin parlaq nümayəndələri F.Hüseynova, S.Yusubov, P.Kuzmenko, S.İsmayılov, R.Elçinova, T.Məmmədova öz yaradıcılıq dəsti xətti ilə daha maraqlı görünür.

Dissertasiyanın **"Əməkdar rəssamı Ədhəm Yusubovun qobelen yaradıcılığının özünəməxsusluğu"** adlı **II fəslinin** *birinci yarımfəslində* qobelen ustası Ədhəm Yusubovun bədii yaradıcılığının erkən dövrü araşdırılır.

Azərbaycanın dekorativ-tətbiqi sənət dairəsində tərəqqisinə nəzər salsaq qətiyyətlə söyləmək olar ki, müasir qobelenin başlanğıcı və inkişafı ölkəmizdə bilavasitə Ədhəm Yusubovun adı ilə bağlıdır. Azərbaycanda təşəkkül tapmış qobelen sənətinin parlaq nümayəndələrindən biri olan Azərbaycanın Əməkdar rəssamı Ədhəm Yusubovun yaradıcılığı müasir bədii toxuculuq sənətimizin müasir durumu haqda geniş təsəvvür yaradır.

ADMİU-nin keramika şöbəsində təhsil alan Yusubov, özünü rəssamlığın bütün sahələrində sınayır. 1960-70-ci illərdə onun tələbə təcrübəsi keçmək üçün Gürcüstana getməsi, daha sonra qobelen sənəti ilə daha dərindən məşğul olan Baltikyanı ölkələrin məktəbi ilə yaxından tanışlığı onun bu sənəti Azərbaycan izləyicisinə təqdim etmək həvəsini artırır. Ədhəm Yusubov bu sənətdə Azərbaycan xovsuz xalça sənəti ilə yaxın qohumluğu – varisliyi görəndən sonra özünü sınayaraq ilk "Çoban rəqsi" qobelenini yaradır. Onun qobelen haqqında bilikləri artır, Pribaltika qobelen məktəbinin yaradıcısı Rudolf Xeymrats ilə tanışlıq isə ona artıq bu sənətin Azərbaycanda yeni bir istiqamət görməsinə təkan verdi.

1972-ci ildə Ə.Yusubov Azərbaycan Rəssamlar İttifaqına üzv 1976-cı ildə isə Rəssamlar İttifaqının Dekorativ-tətbiqi sənət şöbəsinə sədrlik etməklə paralel, Moskvada dekorativ sənət üzrə keçirilən yarış sərgisinin münsif üzvü seçilir. Bu fakt onun nəinki Azərbaycanda, hətta keçmiş SSRİ məkanında püxtələşmiş rəssam kimi fəaliyyət göstərdiyini sübut edirdi. O illər Ədhəm Yusubovla yanaşı bu sahədə çalışan P.Kuzmenko, S.İsmayılov, F.Hüseynova, R.Eminova və b. da var idi. Bu qrup həmişə işləri ilə sərgilərdə iştirak edir və ən əsası da o idi ki, onların işləri yaddaşlardan silinmirdi. Əgər 1960-cı illərdə dekorativ-tətbiqi sənət növü kimi qobelenin inkişafını şərti olaraq ilkin mərhələ hesab etsək, 1976-cı illərdən başlayaraq, 1980-cı illərdə tam surətdə bu inkişaf II mərhələyə daxil olur və 1993-cü ildən isə III mərhələsinə keçir.

Bu mərhələnin səciyyəvi xüsusiyyətləri qobelen sənətində müəyyən üslubların yaradıcılıq istiqamətlərinin monumental, həcm-fəza, mini növlərinin əmələ gəlməsi müşahidə olunur. Qobelen üzrə işlərlə rəssamlar Moskva, Riqa, Yaponiya, Hindistan, Almaniya sərgilərində iştirak edirdilər. Ə.Yusubov bu sərgilərdə "Trio", "Mənim vətənim" işləri ilə, 1978-ci ildə isə Almaniyada Erfurt sərgisində "Xəzər" adlı qobeleni ilə iştirak edir. Daha sonra 1979-cu ildə İsveçrədə keçirilən Dünya sərgisində J.Lyursanın təməlini qoyduğu Biennal sərgisini müşahidə edir, öz vətəninə aparmaq üçün yeni biliklər, informasiyalar toplayır. Biennal sərgisindən aldığı təəssürat sənətə qarşı olan yanaşma öz növbəsində düşüncə tərzi Ədhəm Yusubovu ruhlandırırdı. O, İsveçrədən vətənə böyük və yaddaşından silinməyən



nın yaranması ilə Azərbaycan qobeleni öz layiqli yerini tutmaq şansını əldə edir. Beləliklə, Ədhəm Yusubov 2001-ci ildən ADRA-da "Dekorativ-Tətbiqi Sənət" kafedrasının müdiri və dosenti təyin olunur. Qobelenin inkişafı üçün kafedra böyük emalatxana, yeni böyük və kiçik formatlı dəzgahlar və başqa lazımi vəsaitlərlə təmin edilir. Artıq qobelenin gələcəyi üçün Ə.Yusubovu narahat edən bir sıra problemlər aradan qaldırılır. Qobelenə münasibət dəyişir. Baş verən dəyişikliklər xüsusən tələbələrə öz böyük təsirini göstərir. Verilən həcmdə, yəni ölçüsü $4^2$-dan az olmayaraq işlər işləmək, böyük layihələr üçün kompozisiyalar həll etmək və onları toxumaq üçün hazırlamaq tələbələrin ciddi yanaşma borcunu tənzimlədi.

"Bədii toxuculuq" (qobelen) bölməsi üzrə Ali məktəblər üçün "Texniki layihə" kursunun keçirilməsi üçün yaranan proqramda təqdim olunan "Texniki layihə" kursunun əsas məqsədi tələbələri layihənin material üçün hazırlanması prosesi ilə öncə keçirilən dərslərdən daha da peşəkarcasına tanış etməkdən ibarət idi. Proqramda ardıcıl olaraq bu proses mərhələləri nəzərə alınır. Ədhəm Yusubov qobelen sənətinin rəssamlıq sahəsində mühüm yer tutacağını nəzərə alaraq onun professional dərəcədə yerinə yetirilməsi üçün "Texniki layihə" fənni üzrə məşğələlərin aparılmasını daha məqsədəuyğun bilir. Proqramın tapşırıqları bir növ layihə üzrə iş kursunu tamamlayır, həm də qobelenin interyerdə həllini, yerləşdirilməsini təyin edir. Gənc qobelen rəssamlarının yetişməsində "Texniki layihə" kursu yaradıcılıq yolunda üslublarının tamamlanması vərdişinin formalaşmasına kömək edir.

2004-cü ildə Ə.Yusubov "XX əsr Qobelen sənəti" adı altında metodik vəsait tərtib edir. Bu elmi metodik iş XX əsrdə Fransada J.Lyursa ilə başlanan müasir qobelen sənətinin inkişaf mərhələlərindən və bədii toxuculuq sənətinin bu və digər ölkələrdə yaranan yeni məktəblərin yaradıcılıq xüsusiyyətlərindən bəhs edir. Metodik vəsaitin ikinci hissəsində əsasən Fransa, Polşa, Macarıstan, Çexiya və Slovakiya, Belçika və Norveçdə əsrin ortalarından başlayaraq qobelen sənətinin keçdiyi müxtəlif mərhələlərdə bədii və texniki cəhətdən böyük dəyişikliklərlə müasir sənətdə özünəməxsus yer tutması, bu sahədə geniş təcrübəyə malik olan bir sənətkar təfəkkürü ilə nəzərə çatdırılır.

Xüsusi diqqət fəza qobelenlərin işlənməsinə yönəlir. "Sənət inkişaf etmək üçün azad olmalıdır" – deyir Ədhəm Yusubov. Fəza qobelenlərinin həm texniki, həm də kompozisiya quruluşu tərəfdən inkişafı və icrası üçün rəssamın azad düşüncə tərzi və şəraiti vacibdir. Uzun illər boyu fəza qobelenlərinin populyarlıq təşkil etdiyi Biennal sərgilərində deviz dəyişilməz olaraq qalır – yeni fikir, yeni texnika. Bu isə o deməkdir ki, Biennal sərgilərində daima yenilik və inkişaf bir

hissiyyatı və mədəniyyəti inkişaf etdirilmişdir. Belə qobelenlərin yaradılmasında rəssam yüksək bədii qavrama ilə formaların, rənglərin, materialların dili ilə özünü dərk etməsini göstərməlidir. Belə qobelen rəssamları dövrün sosial tələbatını hiss etməlidirlər. Onların yaratdığı incəsənət iki tərəfi özlərində birləşdirirlər: qobelenin bədii layihələndirilməsi və həmin məmulatın konstruktiv həlli. Bu sahədə keçmiş SSRİ məkanında olan dövlətlər arasında Baltikyanı Respublikaları reformator rolunu oynayırdılar.

Hal-hazırda beynəlxalq sərgilərdə fəza qobelenlərinin get-gedə daha böyük vüsət alması bir daha sübut edir ki, bu müasir istiqamət dünya miqyasında özünü təsdiqləyir və qobelen sənəti qarşısında yeni üfüqlər açır.

Dissertasiyanın **"Əməkdar rəssamı Ədhəm Yusubov Azərbaycan qobelen məktəbinin yaradıcısı kimi"** adlı **III fəslinin** *birinci yarımfəslində* Ə.Yusubovun elmi-metodik fəaliyyəti sahəsindəki nailiyyətləri üzə çıxarılır.

1994-cü ildə ADMİU-nin "Dekorativ-tətbiqi sənət" kafedrasında çalışmış rəssam, elə həmin ildə həmin kafedrada Bədii toxuculuq qobelen şöbəsinin təməlini qoyur, bu sahədə pedaqoji fəaliyyəti başlayır. Bu şöbənin Ali məktəbdə açılması isə artıq yaranmaqda olan Azərbaycan qobeleninin qarşısında peyda olan problemləri həll etməyə məcbur edirdi. Bu işdə inkişafın düzgün getməsi, tələbələrə qobelen haqqında düzgün bilik verib onlardan savadlı qobelen rəssamı hazırlamaq üçün bu sənət üzrə müxtəlif proqramların hazırlanması zəruri idi.

Qobelen sənətinin tədrisinin təməlində duran Ə.Yusubov bu sahədə tələbələrə təhsil vermək üçün də prosesin sadədən mürəkkəbə doğru aparacağını bir məqsəd kimi qarşısına qoymuşdu.

1998-99-cu illərdə Ədhəm Yusubovun rəhbərliyi altında Qobelen şöbəsi üçün daha da mükəmməlləşdirilmiş ilk proqramlar yaradılır. "Layihə", "İstehsalat", "Materialın texnologiyası", "İxtisas üzrə rəngkarlıq" kimi proqramlarında onun seçdiyi metodlar tələbələri yüksək səviyyəli rəssam kimi yetişdirmək üçün dərs prosesində onların peşəkarlıq xüsusiyyətlərinin hansı yollarla artırılması, onların püxtələşməsinə gətirib çıxaran yollara Ədhəm prizmasından baxış daha qabarıq hiss olunur. Qobelen yaradıcılığında xüsusilə yeni təzahür: fəza qobeleninin formalaşması üçün «Konstruksiyalaşdırma» fənninin memarlıq mühiti ilə qobelenin qarşılıqlı əlaqəsinin öyrədilməsi Ədhəm müəllimin öz dövrünün maarifpərvər ziyalılıq xüsusiyyətini bir daha sübut edir.

Həyat və yaradıcılığını Azərbaycanda qobelen sənəti məktəbinin əmələ gəlməsinə həsr etmiş rəssam, nəhayət, 2000-ci illərdə Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında həyata keçirir. ADRA-



təəssüratla qayıtmışdı. Bu səfərdən sonra 1980-ci ildə o, yenidən Almaniyada (Erfurt) "Qaynaqlar" əsəri ilə sərgidə iştirak edir. İki il sonra yenə orada sərgi iştirakçısı olur, bu dəfə "Təəssürat" qobeleni ilə çıxış edir. Ədhəm Yusubov 1987-ci ildə Azərbaycan Rəssamlar İttifaqı Rəyasət Heyətində və Azərbaycan Mədəniyyət Nazirliyinin ekspert komissiyasında fəaliyyətini başa vurur, eyni zamanda Azərbaycan Rəssamlar İttifaqının dekorativ tətbiqi sənət bölməsində komissiya üzvlüyü üzrə işlərini tamamlayır. 1967-1987-ci illərdə Bakıda, Moskvada, Kiyevdə və Səmərqənddə Azərbaycana həsr olunmuş bədii sərgilərin dekorativ-tətbiqi sənət bölməsinin tərtibatında fəal iştirak etmişdir.

1990-cı illərdən başlayaraq ən qabaqcıl qobelen rəssamlarından Ədhəm Yusubov dekorativ-tətbiqi sənətdə ən yüksək zirvəyə qalxır. "Ömrünün 40 ilini bu sənətə həsr etmiş gözəl əsərlər yaratmışdır. Ə.Yusubov Azərbaycanda qobelen sənətinin yaranmasında, inkişafında mədəniyyət və İncəsənət Universitetində qobelen fakültəsinin açılmasında geniş xidmətləri olan sənət adamıdır. Qobelen sənətinin müasir estetik bədii səviyyəyə yüksəlməsində əlindən gələni etməkdədir".[2]

Yaradıcılığını Azərbaycan qobelen sənətinin kontekstində tədqiq edəcəyimiz bu rəssam sənətə qədəm qoyduğu "...ilk anlarından...özü üçün süjet dairəsini müəyyənləşdirib. O, doğma Azərbaycan və zəngin adət-ənənələrimiz, ictimai mühit təbiət motivləridir. Rəssam bu mərhələdə dekorativ-tətbiqi sənətin tarixini öyrənir, muzeylərdə saxlanılan əsərlərə tamaşa edir. O, bu əsərlərin nəsillərin kodlaşdırılmış genetik varisliyi sayır. Onlarda "Bizi kimik?", "Haradanıq?", "Hara gedirik?" kimi suallara cavab tapmağa çalışır".[3]

Hələ o vaxtın dövrü mətbuatında rəssamın yaradıcılığı haqqında xüsusilə tez-tez vurğulanır. "Qobelenin aparıcı ustalarından olan Ə.Yusubov özünün iki işi ilə – "Bahar yelkənləri", "İndustriya" çıxış edir. Yüksək professionallıq, qüsursuz kompozisiya hissiyyatı və koloriti ona həndəsi fiqurlar çərçivəsində dəniz gəzintisi zamanı baharın hıçqırtılı real duyğusunu ifadə etməyə yelkənləri və dor ağacının ritmini səmanın mavi fonunda qayıqların əlvan rənglərini təsvir etməyə imkan vermişdir. Ə.Yusubovun yaratdığı bu əsərlər yuxarıda göstərilən qobelen ustalarının yaradıcılıq meyarlarının əksinə olaraq, aydın kontrast, gərgin həndəsi ləkələr və xətlər yorulmaz irəliyə hərəkətin coşqunluğunun təəssüratını yaradır".[4] Bu dekorativ sənətin dilində təsviri formalar gözəl "oxunur".

---

[2] K.Əliyeva, Ü.Həmidova. "Ədhəm Yusubov" 60. Qobelen // "İncəsənət", 2001, s. 24.

[3] П.Кузьменко. «Искусство в быт» // "Молодежь Азербайджана", №36, 1985.

[4] П.Кузьменко. «Развивая народные традиции» // газ. "Вышка", №54, 1985.

Müasir qobelen sənətində qobelen sapları ilə yanaşı, başqa tekstil məmulatları üçün nəzərdə tutulan sapların parça zolaqların metal saplar, məftillər, qaytan tipli saplardan, kağızdan belə istifadə olunması maraq doğurur. Həmvətənimiz Ədhəm Yusubov öz işlərinin texnoloji icrasına görə öz həmkarları arasında seçilir. Onun rəhbərliyi altında toxunan tələbələrin əl işləri texnoloji üsulların Ədhəm Yusubov məktəbinin doğrudan da layiqli bir yolda olduğunu bir daha sübut edir.

Ədhəm müəllimin yaradıcılığı tədqiqat işinin sonrakı hissəsində geniş təhlil olunaraq bu barədə məlumat verilir. Beləliklə, zaman ötdükcə Azərbaycanda qobelen sənətinin inkişafı daha da sürətlənir, sərgilərin, xüsusən sərgi iştirakçılarının sayı artır.

Fəslin *II yarımfəsli* Ə.Yusubovun qobelen yaradıcılığındakı janr müxtəlifliyindən bəhs edir.

Qobelen sənətində janr bölgüsü rəngkarlıqla daha çox uyğunlaşır. Belə ki, burada rəngkarlıqda olduğu kimi, mənzərə, natürmort, portret və fiqurativ süjetli janrların istifadəsi müşahidə olunur.

Hələ ən klassik qobelenlərə nəzər saldıqda mənzərə janrının qobelen sahəsində nə qədər köklü yayılmış olduğunu müşahidə etmək olar. Klassik qobelenlər icra olunduğu zaman rəssamlar bacardıqları qədər təbiətin surətini əks etdirməyə çalışırdılar. Vaxt keçdikcə müasir qobelendə rəssamlar tərəfindən stilizə olunmuş dekorativ dilə uyğunlaşdırılmış qobelenlər meydana gəlir, hansı ki, təbiətin formalarını dəqiqliklə təkrar etmir. Beləliklə, rəssam onu özününküləşdirərək təbiətlə bir can olduğunu bildirir.

Mənzərə müasir dövrdə öz əksini qobelendə necə tapır? Təbii ki, ilk növbədə müasir düşüncə və müasir texnika qaydaları böyük rol oynayır. Yəni rəssam mənzərə janrında işlənəcək qobelen kompozisiyasını artıq qədim qobelenlərdəki (şpaler) kimi rəngkarlığa bənzər deyil, bugünkü günə uyğun müasir tərzdə işləyir. Bitki aləmi, təbiət, müxtəlif şəhər mənzərələri stilizə olunur, müasir texniki üsullarla toxuculuğun dilinə uyğunlaşdırılaraq hər bir rəssamın şəxsi düşüncəsi nə uyğun olaraq işlənilir. Bu gün müasir qobelen sənəti bütün dünyaya geniş şəkildə yayılmış böyük perspektivi olan sənət növlərindən olduğu üçün o, öz arxasında zəngin arxivə malikdir. Xalqların öz adət və ənənələrinə görə bir-birindən fərqlənməsi və peyzaj janrında bu fərqlənmənin daha qabarıq şəkildə üzə çıxması onun maraqlı nüanslarındandır. Dünya üzrə müasir qobelenin bu janrında Y. Travinskayanın "Çiçəklər", M.Laskeviçin "Küçə", G.Kandarelinin "Fəsillər", "Meşə", R.Baqustovanın "Şeh" adlı əsərlərinin adlarını çəkmək olar.



parçanın strukturunu çılpaq şəkildə təqdim etmək, ajur, kollaj applikasiyalardan istifadə olunur.

Növbəti mərhələdə qobelen palitradan toxuculuq dəzgahına keçirdilir. Artıq rəssamlar toxuculuğu da öz öhdələrinə götürürlər. Onlar qobelenin həm rəssamı, həm də memarı olurlar. Qobelen çoxqatlı fakturalarla qabarır, rənglərin kontrastı ilə çiçəklənir, toxuculuq üsulu modernləşir, onun yaranması yalnız rəngkarlıq və toxuculuq qanunları əsasında deyil, plastika, fəza, zaman, əşyanın daxili strukturu qanunlarına riayət edərək yaranırdı. Beləliklə, qobelen hal-hazırda müasir yaradıcılığın aktual problemləri ilə qarşılaşır: "rəssam-material", "material-forma", "əşya-fəza". "Şübhəsiz ki, 60-cı illərin sovet qobeleninin milli və fərdi variantlarının ümumi cizgiləri ancaq həmin incəsənət növünün spesifik vasitə və imkanları ilə rəssamların kompozisiya həllinə olan cəhdləridir. Xalçanın yerinə yetirilməsində xalçanın canlı səthini yaratmağa kömək edən müxtəlif üsullardan güclü istifadə tendensiyalarından əlavə, onun kölgə-işıq oyunu, qobelen texnikasında qurulmuş yeni həcmli formalarının prinsipial axtarışı qeyd olunur, xalçanı divardan qoparmağa can atmaq, onu interyerdə öz növbəsində sərbəstliyə iddia edən dekorativ heykəl kimi şərh etmək məqsədini güdür".[8]

80-cı illərin əvvəllərində müasir dünya toxuculuğunun təkamülündə 3 istiqamət formalaşmışdır: 1) ənənəvi hamar qobelen, 2) tekstildən və ya yumşaq heykəl, 3) tekstil envoyroment. 1985-ci ildə "tekstil heykəl kimi" adını daşıyan Lozannada keçirilən XII Beynəlxalq Biennalisi olmuşdur. Burada 717 işdən münsiflər heyəti tərəfindən 50 iş sərgiyə buraxılmış ekspozisiyada Yaponiyadan (15 iş), ABŞ (12 iş), Kanadadan (6 iş) gələn az tanınmış rəssamlara üstünlük vermişdir. Bu Biennalda Yaponiyalı iştirakçılar tək sayları ilə deyil, özlərinin konstruktivləşdirmələri, sərt abstrakt, həndəsi kompozisiyaları ilə qarşı tərəflərə üstün gəlmişlər.

Beləliklə, relyef-fakturalı qobelenlər üzərində sonu görünməyən eksperimentlər yavaş-yavaş həcmli tekstil – fəza qobeleni yaradırdı. Fəza qobeleninin əsasını bədii konstruksiyalaşmaya əsaslanan layihələndirmə təşkil edir. Buna görə də fəza qobeleninin əsas problemi öz dövrünün sosial, texniki və estetik təmayülünün sintezidir – mücərrəd insan texnikası ilə cəmiyyətin mənəvi qayəsi məqsədinin sintezidir. Fəza qobelenində hər şeydən əvvəl obrazlı təfəkkür, fəza kompozisiya qabiliyyəti, formanın plastik anlayışı, ritm mütənasibliyi hissiyyatı, material və faktura qarşı qoyulmasının qanunauyğunluqları, həmçinin rəng

---

[8] И.Крюкова. Очерки современного искусства // «Декоративное прикладное искусство» – М.:Наука, 1975, с. 102.

nur, işıqlı dünya, azadlıq, yaşıl – ümid rəmzidir. Bu əsər paradda hərəkət edən milyonlarla bayraqları xatırladır. Müəllif burada bütün dünyanı lərzəyə gətirən, ölüm saçan ağır müharibə üzərində bəşəriyyətin sevincini, böyüklüyünü nümayiş etdirə bilmişdir. "Triumf" qobeleni abstrakt həllə malik monumental dekorativ tətbiqi sənət nümunəsidir. Bu əsərlərlə yanaşı onun "Hərəkət", "Zaman", "Quruluş", "Partlayış", "Son", "Mənbələr", "Kosmos" əsərlərinin adını çəkmək daha məqsədəuyğun olardı. "Hərəkət" qobeleninin mövzusu tamamilə fəlsəfi fikir daşıyır və onun kompozisiya quruluşunda heç bir realistik formalar iştirak etmir, burada aparıcı fikir odur ki, həyat daim hərəkətdədir, hərəkət isə həyat mövcudluğunun rəmzidir. «Partlayış» qobeleni Ə. Yusubovun 1992-ci ildə abstrakt üslubda icra olunmuş əsəri, üçücü ağ-qara koloritli qobelenidir. Əsərdə kainatın yaranmasından bəhs edərək bütöv bir formanın partlayış anı təsvir edilmişdir.

Ədhəm Yusubovun tarixi və fəlsəfi mövzunun kompozisiyasını abstrakt səmtdə həll etdiyi əsərlərdən biri "20 Yanvar" qobelenidir. Kompozisiyanın yuxarı hissəsində yerləşdirilən ağır üçbucaq fiquru başıaşağı bütün var gücü və ağırlığı ilə aşağıya doğru yönəlmişdir. Üçbucağın iti başı sanki fəzanı parçalayaraq böyük sürətlə yerə doğru hərəkətdə özü ilə daşıdığı dəhşətli, tragediya təhlükəsini əks etdirir. Bu üçbucaq sakit yaşayan yerli sakinlərin dünyaya yenicə göz açan körpələri bir sözlə bizə məxsus olan bütün canlı varlıqları məhv etmək üçün yaradılmış 20 yanvar dəhşətinin simvoludur. "Ən başlıcası odur ki, simvolun ifadəli şərhindən aldığımız bundan belə bizim üçün işarəyə çevrilir".[7]

Ədhəm Yusubovun qobelen məktəbində portret janrına da meyl nəzərə çarpır. Rəssam nöqteyi-nəzərindən yaxşı təsvir olunmuş portret təsvir olunan modelin daxili aləmini əks etdirməlidir. Qobelendə portret işləmək üçün rəssam rəngkarlıqda olduğu kimi, eyni prosesləri keçir və onu qobelendə reallaşdırır. Ə.Yusubov bu sahədə "Qadın portreti" ilə özünü sınamışdır. Portret işəyərkən müəllif əsasən, qadınlığa və qadın simasının plastikasına dəqiq nisbətlərə diqqət yetirmişdir. Onun bu əsəri işlədiyi rəngkarlıq və qobelen portretləri sırasında dəyərli əsərlərdəndir.

Fəslin *III yarımfəsli* Ə.Yusubovun əsərlərində nəzərə çarpan abstrakst meylləri tədqiq olunur. Burada bədii toxuculuq sənətinin yeni təzahürü olan fəza təfəkkürünün Ə.Yusubovun qobelen yaradıcılığında da əks olunur.

1960-cı ildə qobelen incəsənəti parçanın relyef faktura effektində üzə çıxan yeni plastik ifadə tərzi axtarmaqla sürətli çiçəklənmə dövrü yaşamağa başladı. Bu dövrdə klassik üslubda fərqli olaraq sərbəst toxuma sistemi qobelenin əsasını,

[7] А.Ф.Лосев. Проблема символа и реалистическое искусство – М.: Искусство, 1976, с. 43.



Bu janrın Azərbaycan qobelenlərində inkişafını müşahidə etmək üçün Ədhəm Yusubovun yaradıcılığı və onun ADRA-da yaratdığı qobelen məktəbinin əsərləri öz müxtəliflikləri ilə gözəl nümunədir. Xüsusi ilə Ədhəm müəllimin öz yaradıcılığında mənzərə janrı böyük yer tutur. Məsələn, onun "Üzümlük" (1957 il), "Abşeron" (1970 il), "Petrol rezervi" (1971 il), "Bayraqlar" (1971 il), "Ana yurdum" (1972 il) əsərlərini göstərmək olar. "Petrol rezervi" ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyinin I dövründə neft və qaz sənayesinin yüksək dinamik mərhələyə qədəm qoymasını səciyyələndirir. İşdə istifadə edilən rənglər öz aralarında təzadlı olsalar da, bu cür mövzulu kompozisiyada uyğunluq təşkil edirlər.

Müəllifin maraqlı yaddaqalan əsərlərdən üç hissədən ibarət olan "Bayraqlar" qobeleni qeyd etmək olar. Kompozisiyada tünd qəhvəyi fon üzərində qırmızı bayraqlar görünür, amma formaca dəqiqləşmədən – assosiativ bayram əhval-ruhiyyəsi yaradır. Xalqlar arası münasibətlərin inkişafı ilə bayraqlar üzərində ölkələrin simvollarının işlənməsi zərurəti meydana çıxmış və bayraq hökumətlərin simvoluna çevrilmişdir. Qobelen sovet dövründə yarandığı üçün onun al qırmızı oraq-çəkic simvollu bayrağı əsərdə üstünlük təşkil edir. "Ana yurdum" qobeleni gənc rəssamların Ümumittifaq sərgisində nümayiş etdirilmişdir. Qobelenin tam mərkəzində ağ geyimli qadın fiquru hər kəsə arxa olan Ana vətən obrazını təmsil edir. Fiqurun bir tərəfində qədim memarlıq abidələri – İçəri şəhər, Qız qalası, Qoşa qala qapısı, Tarix muzeyi, digər tərəfində neft rezervuarları, buruqlar, mədənlər təsvir edilməklə vətənimizin gözəlliyi və zənginliyi işıqlandırılır. Vətən sadəcə müəyyən sərhədləri olan coğrafi bir məkan deyildir. Vətən xüsusi hörmətə layiq müqəddəs torpaqdır. Bir hədisdə vətənini qorumağın əhəmiyyətini bildirən Həzrəti Peyğəmbərimiz (s.ə.s.) buyurmuşdur: "Sərhəd boyunca vətəni qoruyan gözləri cəhənnəm atəşi yandırmayacaqdır, Allahın razılığı üçün vətən sərhədlərini qoruyanlara isə daim savab yazılacaqdır".[5]

"Üzümlük" qobelenində müəllif müasir formalardan istifadə etməklə Bakı bağlarının xarakterik cəhətlərini böyük ustalıqla yaratmışdır. Daha bir "Latviya mənzərəsi" əsərini Ədhəm Yusubov Runi xalçaları texnikasında icra etmişdir, bu qobelen onun mənzərə janrında işləmək üçün əsl məktəb nümunəsi olan qiymətli əsərlərindəndir. Daha sonralar qobelen sənətinin inkişafının II mərhələsinə aid olan "Xalqlar dostluğu", "Məhsul yığımı" əsərləri klassik hamar texnikada toxunmuş, onların ümumi kompozisiya quruluşunda bütün anatomik, plastik və proporsional

[5] Harun Yaxya. 500 hədis.

qanunauyğunluqlara riayət olunmuşdur. “Bahar yelkənləri”, “Xəzər” qobelenlərində Xəzər dənizinin gözəl mənzərəsi həzin mavi fonda olan sərt formalar təzadlı olsalar da, bir-biri ilə vəhdət təşkil edir. Burada şəxsiyyət yetişdirən müxtəlif ziddiyyətlər və kəşflərlə bağlı yaradıcılıq prosesi insanın mürəkkəbliyi, insanın təbiətlə vəhdətini göstərmək istəmişdir və estetik baxımdan buna nail olmuşdur. 1982-ci ildə yaradılmış “Təəssürat” qobelenində rəssam Azərbaycanın milli rəng çalarlarından istifadə edərək təbiət mənzərələrini əks etdirmişdir, peyzaj janrında isə bu cür verilən hər hansı bir təbiətin gözəlliyini hərtərəfli nümayiş etdirmə qabiliyyəti mühüm rol oynayır. Ə.Yusubovun peyzaj janrında icra olunmuş bir çox işlərinə nəzər saldıqda onun ən çox bu janrda işləmək üçün öz vətəninin ecazkar təbiətindən ilham aldığı aydın görünür. Onun “Şamlıq”, “Qobustan”, “Niyyət ağacı”, “Səhər” adlı əsərləri bunu şərhsiz sübut edir. Ədhəm Yusubovun yeni yaradıcılıq mərhələsinə aid olan “Şamlıq” əsəri üç hissədən ibarət olub, yun saplar ilə icra olunmuşdur. Bu əsərin müasir texnika və kompozisiya həllinə baxmayaraq izləyicidə elə bir təəssürat yaranır ki, sanki şam meşəsində günün batmasını seyr edir.

“Qobustan” əsərində müəllif açıq hava altında Dünya şöhrətli abidələrimizdən olan Qobustan tarixi muzeyini əks etdirmişdir. Bu əsər öz daxilində həm peyzaj, həm də fiqurativ süjetli janrı birləşdirir ki, bu da işi daha maraqlı və dəyərli edir.

Ə.Yusubovun qobelenlərinə fiqurativ kompozisiyalar da mühüm yer tutur. Onun bu janrda yaratdığı qobelenlər sırasında “Çoban oyunu”, “Trio”, “Axın”, “Söhbət”, “Toxuculuq”, “Qobustan” və s. əsərlərini göstərmək olar. “Trio” kompozisiyasında ideya və forma bir-biri ilə uyuşur. Milli ruhda işlənmiş fiqurativ kompozisiya zahiri stilizasiyaya gətirib çıxarır. Obrazın mahiyyəti ilə istifadə olunan texniki üsulun şərhi arasında uyğunluq vardır ki, bu da Azərbaycanda qobelen sənətinin fiqurativ və başqa janrlarda özünəməxsus milli xüsusiyyətləri olduğunu sübut edir. “Axın” qobeleni 1990-cı ildə icra edilmişdir. Bu nəhəng ölçülü qobelendə rəssam tünd fon üzərində insan fiqurunun süjetlərini kompozisiya qanunauyğunluqlarını tərk etmədən stilizə olunmuş formada təsvir etmişdir. 20 yanvar gecəsində həlak olmuş günahsız şəhidlərin dəfn mərasimini əks etdirən bu qobelen Bakı küçələrində insan obrazlarının qəmgin axını ilə öz bədii həllini tapır.

Qədim xalq sənətinə hər zaman böyük hörmətlə yanaşan özü də bədii toxuculuq ilə uzun illər boyu məşğul olan Ə.Yusubov bu sənətin nə dərəcədə zəhmət tələb edən və əziyyətli olduğunu dərindən dərk etdiyi üçün toxuculuq mövzusundan yan keçə bilməmişdir. Beləliklə, 2007-ci ildə “Toxucular” adlı qobelen layihəsini hazırlamışdır. Müəllif bu kompozisiyada insan fiqurlarını özünəməxsus stilizə



etmişdir, insan bədəninin plastikliyi işin rəng quruluşu ilə harmonik təqdim olunmuşdur. Ədhəm müəllimin “Söhbət” (2007 il) qobeleninin kompozisiyası abstrakt üslubda yerinə yetirilmişdir. Bu əsərdə müəllif insanın gündəlik həyatında vacib rol oynayan ünsiyyət mövzusuna toxunmuş və bu mövzunun bütün incəliklərini özündə əks etdirmişdir. Rəssamın fiqurativ janrda yaratdığı son dövr əsərlərindən “Azərbaycan” qobeleni fiqurativ janrda kompozisiya həllini tapır. Ədhəm müəllim belə təhlil edir: “Bu əsərdə demək olar ki, Azərbaycanda əsrlərlə geniş bir dövrü əhatə edən müxtəlif üslublarda yaradılmış abidələr öz əksini tapmışdır. Əsərdə nəinki Azərbaycanın qədim dövrünü, eləcə də indiki zamanını və hətta gələcəyini əks etdirən memarlıq növləri göstərilmişdir”.[6] Əsərin mərkəzində qədim Yunan mifologiyasının qərəzsizlik timsalı olan ilahə Femida təsvir olunmuşdur. Femida ali hüquq davranış normalarının, ədalət məhkəməsinin mücəssəməsidir. Onun gözü bağlı olması isə qərəzsizlik timsalıdır. Əlində çəki daşlarını tutmuş vəziyyətdə təsvir olunmasının məcazi mənası isə ədalət divanıdır. Femidanın ətrafı isə memarlıq abidələri ilə əhatə olunmuşdur: “Qız qalası”, “Atəşgah”, “Möminə Xatun”, “Şəki xan sarayı”, “Qarabağlar” və s. müasir dövr memarlığının nümunələri: Şəhidlər Xiyabanı, H.Əliyev fondunun binası, Bibiheybət məscidi və s. Mövzudan aydın olur ki, Azərbaycanın incəsənət ustaları Dünya memarlıq tarixində özünün layiqli yerini tutmuş Şərq Dünyasının elmini, mədəniyyətini, obrazlılığını özündə əks etdirən nadir sənət inciləri yaratmışlar ki, bu əsərlər əsasını, kökünü qorumaqla yeni müasir formalarda öz təzahürünü tapır, yenə də təhlilini tələb edən yeni sənət incilərinin yaradılması davam edir. Bu cür incəsənətə qadir olan xalq həmişə ali fikirlərlə yaşamış, yaratmış və gələcəyini də bu ruhda qurmaqdadır.

Memarlıqda, dizaynda, dekorativ sənətdə qeyri-təsviri formaların tətbiqinə təşəbbüs və onların riyazi və mühəndisi prinsiplərlə icrası fərdi düşünmə tərzi, rəng və formaların köməyi ilə dərin fəlsəfi fikirləri açıqlamaq və əks etdirmə qabiliyyəti Ədhəm yaradıcılığında böyük çoxluq təşkil edən abstrakt səmtli qobelen əsərlərinin yaranmasında mühüm rol oynayır. Bu səmtdə olan əsərlərdə adətən təsvir üsulu ya tamamilə inkar olunur, ya da arxa plana keçirilir. Bu baxımdan Ə.Yusubovun “Triumf” (1974 il) qobeleni diqqətəlayiqdir. Qobelenin aşağı hissəsi tünd ağır rənglər çalarlarında faktura ilə icra olunmuşdur. Yuxarı hissədə isə bayram əhval-ruhiyyəli rənglər bir-birini tamamlayır. Kompozisiyanın yuxarı hissəsində təzadlı rəng koloritindən istifadə edilsə də, rəng üstünlük təşkil edir: qırmızı – qələbə, ağ –

[6] Ə.Yusubov, S.Məmmədov Azərbaycan qobeleninin izahatnaməsi.

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
АЗЕРБАЙДЖАНСКАЯ ГОСУДАРСТВЕННАЯ АКАДЕМИЯ ХУДОЖЕСТВ

*На правах рукописи*

**ГЮЛЯРА ФАИК КЫЗЫ ВЕЛИЕВА**

# ТВОРЧЕСТВО АДХАМА ЮСУБОВА В КОНТЕКСТЕ РАЗВИТИЯ ИСКУССТВА ГОБЕЛЕНА В АЗЕРБАЙДЖАНЕ

Специальность: 6218.01 – Декоративно-прикладное искусство

**А В Т О Р Е Ф Е Р А Т**

Диссертации, представленной на соискание ученой степени доктора философии в области искусствоведения

БАКУ – 2013

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT RƏSSAMLIQ AKADEMİYASI

*Əlyazma hüququnda*

**GÜLARƏ FAİQ QIZI VƏLIYEVA**

# ƏDHƏM YUSUBOVUN YARADICILIĞI AZƏRBAYCANDA QOBELEN SƏNƏTİNİN İNKİŞAFI KONTEKSTİNDƏ
**TAHİR OSMAN OĞLU ÇELİKBAĞ**

**İxtisas:** 6218.01 – “Dekorativ-tətbiqi sənət”

Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsini almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

B A K I – 2013

Dissertasiya işi Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının "İncəsənət tarixi" kafedrasında yerinə yetirilmişdir

**Elmi rəhbər:** ***Kübra Muxtar qızı Əliyeva***
***sənətşünaslıq üzrə elmlər doktoru, dosent***

**Rəsmi opponentlər:** ***Sevil Yusif qızı Sadıxova***
***sənətşünaslıq üzrə elmlər doktoru, dosent***

***Xəzər Atif oğlu Zeynalov***
***sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent***

**Aparıcı müəssisə:** ***L.Kərimov ad. Azərbaycan xalçası və xalq tətbiqi sənəti Dövlət Muzeyi***

Dissertasiya işinin müdafiəsi **2013-cü il** "**29**" **noyabr** saat **14:00-da** Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının nəzdində FD.02.191 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ1029, Bakı şəhəri, Heydər Əliyev prospekti 58, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının Elmi Şurasının iclas otağı.

Dissertasiya ilə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat "**29" oktyabr 2013-cü** il tarixində göndərilmişdir.

**FD. 02.191 Dissertasiya Şurasının elmi katibi:**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru:** **X.Z. Əsgərova**

Sifariş № 290; tiraj100
"MBM" mətbəəsində
çap olunmuşdur